# Xocalı soyqırımı bəşəriyyət tarixinin ən qanlı hadisələrindən biridir

## Qardaş Türkiyə və dünya mediası soyqırımından yazır

**Azərbaycan və bütövlükdə dünya tarixinin ən qanlı hadisələrindən biri - Xocalı soyqırımının növbəti ildönümü tamam olur. Erməni silahlıları və o zaman mövcud olan 366-cı alayın birgə törətdikləri soyqırımı zamanı yüzlərlə soydaşımız vəhşicəsinə qətlə yetirildi, bütöv ailələr yer üzündən silindi.**




Faciə ilə bağlı bu il də ölkəmizdə və onun hüdudlarından kənarda anım mərasimləri keçirilir, faciə qurbanlarının xatirəsi yad edilir. Hər il olduğu kimi, bu il də dünyanın nüfuzlu mətbu orqanları faciə ərəfəsində çoxsaylı xəbərlər, məqalələr, reportajlar hazırlayır, erməni cəlladları tərəfindən həyata keçirilən soyqırımı barədə ətraflı məlumatlar dərc edirlər. Bu sırada, hər dəfə olduğu kimi, qardaş Türkiyənin mətbuatı fəallıq nümayiş etdirir.

Mətbuat orqanları və televiziyalarda faciə nəticəsində həlak olanların xatirəsi anılır və günahkarların hələ də məsuliyyətə cəlb olunmadığı xüsusi vurğulanır. Məlumdur ki, qardaş ölkənin dövlət kanalı **"TRT"** ənənəsinə sadiq qalaraq, Xocalı soyqırımı haqqında həqiqətləri 25 və 26 fevral tarixlərində canlı yayımlarla **"TRT 1", "TRT Haber"**, və **"TRT Avaz"** vasitəsilə dünyaya çatdıracaq. "TRT Avaz" kanalının çəkiliş qrupu 24-26 fevral tarixlərində Bakıda olacaq. Kanalın əməkdaşları Azərbaycan Dövlət Televiziyasının texniki dəstəyi ilə Qız Qalası və Xocalı abidəsi önündən canlı yayım həyata keçirəcək. "TRT"-nin Bakı təmsilçisi Yıldıray Arslan türk nəşrlərinə bildirib ki, "TRT Avaz" Kanal koordinatoru Murat Akkoç və "Detay 13" proqramının aparıcısı Gökçən Oğanın rəhbərlik etdiyi çəkiliş qrupu iki gün boyunca Bakıda silsilə canlı yayımlar reallaşdıracaq. O, hər il olduğu kimi, bu il də anım günlərində eyni həssaslıqla hazırlanan proqramların, Xocalı şahidlərindən alınan müsahibələrin, sənədli filmlərin və kliplərin "TRT Avaz", "TRT Haber" ekranlarında yayımlanacağını bildirib. Bununla yanaşı, "TRT" Bakı Təmsilçiliyinin hazırladığı "Xocalının Şahidləri" adlı 12 bölümdən ibarət proqram "TRT" kanallarında yayımlanacaq.

**"Dünya"** qəzeti yazır ki, fevralın 27-də Türkiyənin Bornova və İzmir şəhərlərində Azərbaycan parkı və Xocalı Soyqırımı abidəsinin açılışı olacaq. Qəzetə açıqlamasında millət vəkili Qənirə Paşayeva məlumat verib ki, yaxın zamanlarda Bornova ölkəmizin gözəl bölgələrindən biri ilə qardaşlaşacaq və əməkdaşlığımız daha da genişlənəcək. Nüfuzlu **"Zaman"** qəzeti isə Xocalı qətliamının ildönümü ilə bağlı yazı dərc edib. Qeyd edilib ki, 1992-ci il fevralın 26-da Ermənistan silahlı birləşmələri tərəfindən Xocalıda törədilən dəhşətli qırğın Azərbaycan xalqının tarixində dərin iz buraxmış olub. **"Sabah"** qəzeti "Xocalıya ədalət" kampaniyasından bəhs edib. Qeyd edilib ki, kampaniyanın əsasını 2008-ci ildə Leyla Əliyeva qoyub. "Xocalıya ədalət" kampaniyasının məqsədi dünya birliyinə Xocalıda baş verən soyqırımı haqqında məlumat verməkdir. "Hələ də Qarabağ bölgəsində sülh əldə olunmayıb və qətliamın iştirakçıları cəzalandırılmayıb" deyə yazıda vurğulanıb. Məqalədə qeyd edilib ki, "Xocalıya ədalət" kampaniyası çərçivəsində Türkiyədə müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub: "İstanbuldan kənarda da anım mərasimləri keçiriləcək və sərgilər təşkil olunacaq".

**"Yeni Çağ"** qəzetində dərc edilən məqalədə bildirilir ki, Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qətnamələrə baxmayaraq, Dağlıq Qarabağ və ətrafındakı 7 rayon hələ də erməni əsarəti altındadır və Xocalı şəhərində baş verən qətliamın iştirakçıları hələ də cəzalandırılmayıb. Məqalədə qeyd edilir ki, soyqırımı gecəsi haqqında danışmaq və nəsə yazmaq asan deyil: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda azərbaycanlı olduqlarına görə insanlar vəhşicəsinə öldürüldü. Həmin gecə 613 nəfər azərbaycanlı qətlə yetirildi, yüzlərlə insan əsir götürüldü. Lakin dünya birliyi Xocalıda baş verən soyqırımına qarşı heç bir tədbir görmədi. Bu da Ermənistan rəhbərliyini daha da cəsarətləndirdi və Dağlıq Qarabağla birlikdə ətrafındakı 7 rayon işğal edildi. 1994-cü ilin may ayında Azərbaycanla Ermənistan arasında atəşkəs elan olundu. Lakin bu münaqişə 20 ildir ki, həllini tapmır".

Qeyd etdiyimiz kimi, digər dünya ölkələrinin mətbuatında da faciə ilə bağlı yazılar və materiallara rast gəlmək mümkündür. Məsələn, ABŞ-ın **"Eurasia review"** jurnalında beynəlxalq münasibətlər üzrə ekspert Piter Teyzin "Azərbaycanda Xocalı faciəsi: iyirmi dördüncü ildönümünün anımı" sərlövhəli məqalə dərc edilib. Müəllif məqalədə Xocalı soyqırımı barədə ətraflı məlumat verir. Bildirilir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalı şəhərini işğal edib. Nəticədə 106-sı qadın, 63-ü uşaq olmaqla, 613 dinc sakin qətlə yetirilib, 487 nəfər yaralanıb, 1275 nəfər əsir götürülüb, 150 nəfər isə itkin düşüb. Qeyd olunur ki, Xocalı soyqırımı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən qanlı hadisəsi kimi tarixə düşüb.

Bundan əlavə, Misirin **"Masr al-Arabiyya"** nəşri "İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımının ildönümünü yad edir" başlıqlı məqalə dərc edib: "Bu soyqırımı erməni qüvvələri tərəfindən 1992-ci ildən bəri Ermənistanın işğalda saxladığı Qarabağ vilayətinin tərkibində, Azərbaycanın cənub-qərbində yerləşən Xocalı şəhərinin dinc əhalisinə qarşı törədilib. Xocalı hadisələri Azərbaycan torpaqlarının ermənilər tərəfindən qeyri-qanuni işğalı nəticəsində baş verib".

Beləliklə, ölkəmiz sabah tarixinin ən ağrılı-acılı günlərindən birini yad edəcək. Ən pisi odur ki, üstündən 24 il keçməsinə baxmayaraq, hələ də faciəni törədənləri beynəlxalq məhkəmə qarşısına çıxarmaq mümkün olmayıb. Ona görə də cinayətkarların ədalət məhkəməsi qarşısında durmasına nail olmaq gərəkdir. Və ortada belə bir praktika da var. Keçmiş Yuqoslaviyada törədilən cinayətlərin iştirakçılarının məhkəmə qarşısında durmasına nail olunub. Bu yaxınlarda isə qonşu Gürcüstan 2008-i il Rusiya-Gürcüstan müharibəsi zamanı yaşananlarla bağlı Beynəlxalq Haaqa Məhkəməsinə müraciət edib. Ortada konkret nəticə də var. Artıq məhkəmə bu işi icraata götürüb. Ümid edək ki, nə vaxtsa Serebrenitsa qətliamından geri qalmayan Xocalı soyqırımının cəlladları da ədalət məhkəməsi qarşısında dayanıb layiqli cəzalarını alacaqlar.

**Azər NURİYEV**